НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
**ИНСТИТУТ РУКОПИСЕЙ им. МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**ФАИЗА АБУЛЬФАЗЛ кызы МУСЛИХИ МУСЛИХАБАДИ**

# СОЦИАЛЬНЫЕ АСПЕКТЫ РАЦИОНАЛИЗМА В ИСЛАМЕ

**7213.01** – Религиоведение

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени доктора
философии по философии

**БАКУ – 2015**

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

*Əlyazması huququnda*

**FAİZƏ ƏBÜLFƏZL QIZI MÜSLİHİ MÜSLİHABADİ**

# İSLAMDA RASİONALİZMİN SOSİAL ASPEKTLƏRİ

**İxtisas: 7213.01 – Dinşünaslıq**

fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

## AVTOREFERATI

**Bakı – 2015**

Ali Attestasiya Komissiyası
Daxil olm...
281-217
17-9-18

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Farsdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *Filologiya üzrə elmlər doktoru*
Nəsib Cümşüd oğlu Göyüşov

**Rəsmi opponentlər:** *Filologiya üzrə elmlər doktoru, prof.*
Nəsrulla Naib oğlu Məmmədov

*İlahiyyat üzrə fəlsəfə doktoru*
Səbinə Əsgər qözı Nemətzadə

**Aparıcı müəssisə:** AMEA Fəlsəfə və Hüquq İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsi

Müdafiə " 5 " iyun 2015-cü il tarixdə, saat $12^{00}$-da AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az1001, İstiqlaliyyət küçəsi 26, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "22" aprel 2015-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının Elmi Katibi,
İlahiyyat üzrə fəlsəfə doktoru Z.A.Əbilova

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

__Mövzunun aktuallığı.__ Hər bir fəlsəfi, dini-ideoloji və sosioloji məktəb dünya, insan və cəmiyyət haqqında aöıl və məntiqə əsaslanarsa insanların qarşılaşdığı problemlər, o cümlədən sosial məsələlər daha səmərəli şəkildə həll olunar. Bu baxımdan İslam mədəniyyətində formalaşan ictimai-sosial baxışlar, iqtisadi sistem və digər ənənələr əhəmiyyət daşıyır. İslamda bütün məsələlər, o cümlədən, sosial münasibətlər vəhydən dogan bir təlimə əsaslanaır, lakin bu o deməkdeyildir ki, həmin təlim rasionalizmdən uzaqdır. Quran insanı hər şeydən öncə ağıl, iradə, ixtiyar və məsuliyyət sahibi kimi tanıyır. Həmin cəhət insana öz sosial həyatında və başqa işlərdə düzgün və məntiqli seçim etməyə imkan verir. Hər bir fərdin mülkiyyət sahibi olmaq istəyi onun təbiətindən doğur, ağıl isə bu arada onu mövcud sərvətlərdən daha səmərəli və rasional faydalanmağa sövq edir.

Burada bir neçə mühüm məqama toxunmaq lazım gəlir. Birincisi, dinlə mədəniyyət bir-birilndən ayrılmazdır, "mədəni olan mahiyyətcə dindir və dini olan mahiyyətcə mədənidir"[1]. Ona görə də Şərq cəmiyyətlərində səbatlı yer tutan mədəni-dini dəyərləri müasirlik baxımından "əhəmiyyətsiz saymaq" və ya Şərq ənənələrinə "donuq bir məsələ kimi yanaşmaq" doğru deyildir[2]. Elə həmin yanlış mövqeyə görə bir sıra Qərb şərqşünasları ənənə ilə müasirlik arasındakı əlaqəni düzgün dəyərləndirə bilməmişlər. İkincisi, İslam mədəniyyətinin inkişaf amillərindən biri onun başqa xalqların elmi və mədəni irsi ilə yaxından təmasda olmasıdır.[3] Başqa sözlə desək, müsəlmanlar başqa xalqların elmi və mədəni irsinə rasional mövqedən yanaşmış və onlardan faydalanmışlar. Eyni zamanda islam və Quran elmə və əqli fəaliyyətə yüksək qiymət verir[4] Təsadüfi deyildir ki, Şərq və İslam dünyasında intibah Avropadan bir neçə əsr qabaqca başlamışdır[5]. Bu fakt özlüyündə islamda rasional

---

[1] Paşazaə Allahşükür. Qafqazda islam. Bakı: Azərnəşr. 1991.s.23
[2] Ерасов Б.С. Культура, религия и цивилизация на Востоке (Очерки общей теории). М.: Наука, 1990.с.30
[3] Бернал Дж. Наука в истории общества. М., 1956.с.118
[4] Роузентал Ф. Торжество знания (Концепция знания в средневековом исламе). Перевод с англ. М.: Наука, 1978,с.20
[5] Конрад Н.И. Запад и Восток. М. 1972.с.20

düşüncənin mövcudluğunu təsdiqləyir. Digər maraqlı bir məqam ondan ibarətdir ki, İslamda bir sıra dini təlimlərdə olduğu kimi tərkidünyalıq yoxdur və akad. Piotrovskinin qeyd etdiyi kimi, burada dünyəvi və mənəvi tərəflər arasında əlaqə vardır[6].

Qur'an və başqa mötəbər islam mənbələri bəşər həyatının bütün sual və ehtiyaclarına cavab tapmaq üçün dəyərli xəzinə hesab edilir. Bu zəngin xəzinədə ilk növbədə bütün məsələlərə münasibətdə rasional bir istiqamət diqqəti cəlb edir. Bəllidir ki, insan həyatının bütün tərəfləri, onun maddi və mənəvi ehtiyacları ağıl və məntiqli davranış əsasında təmin edilə bilər. İslamda təkcə sosial məsələlər deyil, etiqad və başqa mövzuların araşdırılması rasional baza üzərində aparılır. Sosial münasibətlərin tənzimlənməsində rasional metod ilk növbədə israf məfhumu ətrafında özünü büruzə verir. Bu məfhum bir növ rasional həddi keçmək mənası bildirir; yəni istər ibadətdə, istər iqtisadi məsələlərdə və istərsə də ictimai rəftarda israf rasional normalardan keçmək deməkdir. Bu baxımdan islamda israf və onun fərd, ailə və cəmiyyət həyatına göstərdiyi təsir, məsrəf və onun tənzimlənməsi yolları geniş müzakirə obyektidir. Deməli, fərd, müəyyən meyarlar və prinsiplər, normalar və qayda-qanunlar üzrə formalaşır ki, bunların hamısı məntiqə əsaslanır.

İslamda israf rasional həddi keçmək mənası bildirirsə, bunun müqabilində etidal və orta yol rasionalizmə əsaslanan tarazlıq və balans mənası bildirir. Ədl, etidal, qəsd, iqtisad kimi terminlər geniş mənada etiqad, əxlaq, ictimai-sosial və iqtisadi məsələləri əhatə edir. Maraqlı haldır ki, maddi sərvətlərin və məsrəflərin qeyri-rasional istifadəsinin mənfi nəticələri müasir dünyada təkcə fərd və ailə ilə məhdudlaşmır, bu məsələ artıq cəmiyyətin böyük sosial-ictimai və iqtisadi problemi kimi qarşıya çıxır. Artıq bu mövzu bir neçə ölkənin və regionun problemi olmaq çərçivəsindən kənara çıxaraq qlobal xarakter daşımaqdadır. İsraf, bədxərclik və təmtəraqlı həyat tərzi dünyada qlobal sosial böhrana gətirib çıxarır. Bir tərəfdə zənginlik, izafi sərvət və lüzumsuz xərclər, o biri qütbdə isə yoxsulluq, qıtlıq və səfalət çağdaş dünyanın paradokslarındandır. Təbii sərvətlərdən

---

[6] Пиотровский М.Б. Светское и духовное в теории и практике средневекового ислама./Ислам (Религия, общество, государство/. Наука. 1984.с.177



qeyri-rasional istifadə eyni zamanda yer üzərində ekoloji böhrana səbəb olur. İndi israf və onun nəticələri, məsrəf və onun rasional tənzimlənməsi məsələsi Avropa, Yaponiya və başqa ölkələrdə sosioloqlar, iqtisadçılar və başqa humanitar elm sahəsi üzrə mütəxəssislər tərəfindən ciddi şəkildə araşdırılır. Bununla bağlı olaraq Qur'anda və islamda bu problemin qoyuluşu, onun həlli yolları maraqlı və aktual bir mövzudur. Məsələyə islamın necə yanaşması bu səmavi dinin bəşəri bu gün də düşündürən bir çox həyati sualların cavabında nə qədər uzaqgörən olduğunu göstərir.

Qur'ana görə varlıq aləmi müəyyən bir nizam və qanunauyğunluğa malikdir, Allah hər meyi müəyyən meyar və ölçü-mizan əsasında yaratmışdır (Furqan:2, Rəhman:5,7), Onun xilqətində xələl və nizamsızlıq tapa bilməzsən (Mulk:3-4).

Deməli, dünya müəyyən bir nizam və sistem şəkildə, məntiq və rasionalizm əsasında xəlq edilmiş, yeganə ağıl, düşüncə və iradə sahibi olan məxluqa, yəni insana göylərdə və yer üzərində olan nemət və sərvətlərdən bəhrələnmək imkanı vermişdir. İnsan isə saysız nemətlərdən rasional şəkildə faydalanmalı, Allahın qoyduğu hüdudları keçməli deyil. Deməli, islama görə, insanın maddi və sosial həyatı rasionalizm əsasında tənzimlənə bilər.

Tarix boyu bir çox mədəniyyətlər bir-birini əvəzləmiş, bəşər övladı öz sosial rifahı və normal həyatı üçün təbii qaynaqlardan və sərvətlərdən istifadə yollarını təkmilləşdirmiş, elm və texnologiyanın inkişafı sayəsində öz həyati tələbatlarını daha rahat və asanlıqla ödəməyə nail olmuşdur. Bununla belə, insanlar Allahın qoyduğu rasional hüdudları keçməklə həm təbiət və ekologiyanı korlamış, həm də fərdi və ictimai həyatda sosial böhranlarla üzləşmişlər. Dini baxımdan "sirati-müstəqim" orta və rasional yoldur.

İslam özü də orta və rasional bir dindir, belə ki, Əhdi-ətiqə xas ifratdan və Əhdi-cədidə xas təfritdən uzaq bir təlimdir. Bu təlim bütün sahələrdə – fərdi və ictimai həyatda, maddi və mənəvi məsələlərdə, dünyəvi və axirət işlərində ağıl və elmə yəni rasional dəyərlərə əsaslanmaqla balansı qoruyub saxlayır.

İsraf isə məntiqi ölçünü aşaraq həmin tarazlıqdan kənara çıxmaq deməkdir; bu yol nəticə etibarilə insanı fəsada, başqalarına qarşı etinasızlığa sürükləyir.

Qur'an, hədis və digər islam qaynaqları əsasında bu mövzunun araşdırılması islamşünaslıq sahəsində aktual məsələlərdən biridir. İndi israfçılıq fərdi və ailəvi problem deyil, bu məsələ artıq sosioloji və ictimai böhran doğuran bir problemə çevrilmişdir. Xüsusilə Şərqdə – müsəlman ölkələrində həmin məsələ öz kəskinliyi ilə cəmiyyətin tərəqqisinə əngəl olan problemlər sırasındadır. Mövzunun tədqiqi həm də məsrəfin tənzimlənməsi məsələsində faydalı tövsiyələrin irəli sürülməsinə yol aça bilər.

**Mövzunun tədqiq səviyyəsi.**

İslamda elmi və fəlsəfi fikir tarixi barədə çox sayda araşdırmalar aparılmış və kitablar nəşr edilmişdir. İslam elm və mədəniyyətinin Avropaya təsiri məsələsi ətrafında da tədqiqatlar və diskussiyalar aparılmışdır.

İslamda bir sıra məfhum və məsələlər vardır ki, onlar ilk baxışda dini tövsiyələr kimi diqqəti cəlb edir. Bunlara misal olaraq israf, məsrəf, etidal, qəsd və s.-ni göstərmək olar. Şəriət, fiqh və kəlamda həmin məfhumların özünəməxsusus mənaları vardır. Bu istiqamətdə müəyyən araşdırmalar və kitablar mövcuddur. Bizim dissertasiya işində isə sözügedən məfhumlar islamda rasionalismin sosial aspektləri bucağından araşdırılır. Məs, Quranda və hədislərdə israf və bəbxərclik ölçü və meyardan kənara çıxmaq kimi anlaşılır. İnsanlardan qoyulan həddi və ölçünü aşmamaq tələb olunur. Məsələyə dərindən yanaşsaq, norma və meyarlar ağıl və məntiqə uyğun müəyyən edilir ki, bu da rasionalizmin aydın bir nümunəsidir. İslamda etidal məsələsi barədə müxtəlif qaynaqlarda bəhs edilmişdir, ancaq bizim tədqiqat işində həmin məfhum və prinsip rasinalizmin mühüm ünsürü kimi sosial münasibətlərin tənzimlənməsi baxımından dəyərləndirilir. Deməli, israf geniş mənada anlaşılaraq etiqaddan tutmuş insan və cəmiyyət həyatının sosial-ictimai və əxlaqi-mənəvi tərəflərini əhatə edir.

**Araşdırmanın yeniliyi.** Dissertasiya işində islam rasionalizminin sosial aspektləri sistemli şəkildə araşdırmaya cəlb olunur. Quran ayələri, hədislər və başqa mənbələrə əsasən bir yandan sosial münasibətləri pozan amillərin mahiyyəti açıqlanırsa, başqa bir yandan isə həmin münasibətlərin tənzimlənməsini təmin edən prinsiplər təhlil edilir. Tədqiqatın elmi yeniliyini yığcam şəkildə belə vermək olar:



- İslamda sosial məsələlərə rasional münasibətin əsas cəhətlərinin müəyyən edilməsi;
- İslamda sosial tənzimləmənin rasional meyarları;
- İslamda rasionalizmi təmin edən etidal prinsipinin təhlili;
- İslamda sosial münasibətlərə rasional baxış və müasirlik;
- Sosial həyatda rasional münasibətlə əxlaq arasında əlaqən.

Dissertasiyada eyni zamanda sosial-iqtisadi əlaqələrin qeyri-rasional qurulması səbəbindən müasir dünyada baş verən sosial və iqtisadi böhran məsələsinə də toxunulur.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.**

Tədqiqatın əsas məqsədi islam rasionalizminin sosial aspektlərini elmi şəkildə müəyyənləşdirməkdən ibarətdir və həmin məqsədə yetişmək üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- İslamda sosial münasibətlərin rasional tənzimlənməsinə maneçilik törədən amillərin müəyyənləşdirilməsi;
- israf və bədxərclik, onu yaradan amillərin tipologiyası;
- israfın meyar və növlərinin sistemləşdirilməsi;
- İslamda mötədil-orta yanaşma metodu rasional yanaşma prinsipi kimi;
- sosial münasibətlərin rasional tənzimlənməsinin digər aspekləri;
- İctimai əxlaqda mötədillik prinsipi;
- məsrəflərin rasional tənzimlənməsi.

**Araşdırma: anın metodu.** Dissertasiyada qoyulan məsələlər Quran, hədis və başqa ilkin qaynaqlar əsasında müqayisəli şəkildə təhlil edilmiş, buraya Orta əsrlər islam maarifinə aid mötəbər əsərlər də cəlb edilmiş, müasir elmi baxışlarla müqayisələr aparılmış, mövzunun əhəmiyyəti müasir elmi baxışlarla əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırmanın elmi-nəzəri müddəaları dinşünaslıq və islamşünaslığın müasir dönəmdə başqa humanitar elmlərlə əlaqəsinin daha geniş elmi müstəvidə tədqiqi üçün əhəmiyyətli ola bilər. Tədqiqatda qoyulan məsələr və onların nəticələrindən islam mədəniyyətilə bağlı fənlərin tədrisində istifadə oluna bilər.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**" İsraf İslamda qeyri-rasional münasibətin əsas amili kimi"** adlı birinci fəsilin ilk yarımfəslində ***İsraf məfhumu, onun amilləri və növləri*** araşdırılır.

İsraf sözü sərəfə (سرف) kökündən olub mənası qanun və ya şəriət hədlərini keçmək deməkdir ki, bu da rasional düşüncə baxımından yolverilməzdir. Təbzir isə bəzr kökündən olub mənası ayırmaq, boş yerə toxum səpmək deməkdir[7] .Təbzir lüğətdə hədsiz xərcləmək, mal-sərvəti dağıtmaq, tələf və zay etmək mənası daşıyır[8] Bu iki söz bir-birinin müqabilində yerləşir; israf orta həddən çıxmaq, təbzir isə malın boş yerə tələf və zay olması deməkdir. Rağib İsfəhani israf sözünün mənasını belə izah edir: "İsraf insanın baş vurduğu hər bir işdə həddi aşması deməkdir."[9].

Yarımfəsildə Qur'an ayələri üzrə israfın mənaları araşdırılır. Bu söz Quranda 23 yerdə işlənmişdir ki, hər bir halda özünəməxsus mənası ilə seçilir. Əksər hallarda israf dedikdə etiqad və əxlaqi məsələlərdə və sosial məsələlələrdə ilahi hüdudları keçmək deməkdir. Qur'ani-Kərimdə "həmin hallar kəskin şəkildə pislənir"[10] : "İsraf edənlərə (həddi aşanlara) itaət etməyin." (Şüəra:151). Həmin məna başqa ayələrdə də təkidlə vurğulanır (Mumin:28; Yunus:12).

Hətta insan cavanlığını, ömrünü, sağlamlığını boş yerə fəsad və günah yolunda sərf edərsə, bundan da betər israfçılıq olarmı?[11] .

Fəxr Razi Yunus surəsi, 83-cü ayəsində işlənən "musrifin" sözünü Fironun zülmdə həddən aşması kimi izah edir[12]. Bu ayədə "israf" ictimai-əxlaqi həddi aşmaq mənası bildirir.

Əllamə Təbatəbai isə Ənam surəsi, 141-ci ayəni təfsir edərkən "israf etməyin" sözünün geniş məzmun daşıdığını qeyd edir[13]. Buradan da israfın qarşısını almaq rasional məzmun daşıyır.

---

[7] المفردات، ابوالقاسم حسين بن محمد بن فصل معروف به راغب اصفهاني، ترجمه دكتر سيد غلامرضا خسروي حسيني، تهران، انتشارات مرتضوي، ج2،ص 210

[8] لغت نامه دهخدا، علي اكبر دهخدا, تهران، دانشگاه تهران، 1325. ج4، ص55

[9] المفردات، ابوالقاسم حسين بن محمد بن فصل ،ج2، ص210

[10] نگاهي به اصلاح الگوي مصرف، ابوذر نصر الهي نيا و سجاد سليمي سيار، تهران، نشر روحي، 1388.ص 43

[11] تفسير نمونه، ناصر مكارم شيرازي، قم، دار الكتب الاسلاميه. ج8،ص 238

[12] تفسيركبير (مفاتيح الغيب). امام فخر رازى. بيروت، دار الكتب العلميه .1411. ج17، ص145



Yarımfəsildə israfı müəyyənləşdirən meyarlar iki cəhətdən: a.şəriət və b. ümumi ictimai davranışa görə ayırd edilir.

***Şəriət baxımından israfın meyarı.*** İsraf təkcə inzibati ölçülərə deyil, ilahi hökmlərə və hüdudlara riayət etməmək, şəriət qaydalarını pozmaq, Allahın nemətlərini zay etmək, təbii qaynaqları və sərmayələri tələf etmək, xüsusi və ümumi mülkiyyəti boş yerə xərcləmək, "Allahın nemət və sərvətlərini Onun məqbul saymadığı yolda sərf etmək deməkdir"[14] . Bütün sadalanan cəhətlər həm rasional düşüncə, həm də şəriət baxımından halal və doğru deyildir.

Vacib hüdudlardan vaz keçmək günah və ilahi hökmləri pozmaq israfın əlamətləridir. Qur'anda bu sözün həmin mənada işlənməsi halları çoxdur (Ali-İmran:147; Zumər:53; İsra:33). Son ayədə qətldə israf məsələsi önə çəkilir, bu o deməkdir ki, fərd və ya fərdlər hətta qisasda ilahi həddi aşmalı deyillər[15].

***Ümumi ictimai davranış baxımından israfın meyarı.*** Bir sıra hallarda israfın həddini müəyyənləşdirmək üçün ictimai normalar meyar kimi götürülür. Məsrəflərdən hər birinin hüdudu cəmiyyətdə iqtisadi vəziyyət, zaman və şərait, maliyyə vəziyyəti, hər bir şəxsin ictimai yeri və maliyyə imkanı nəzərə alınmaqla müəyyən edilir, məntiqi bir miqdar təyin olunur. Deməli, "müəyyən həddən aşmaq və ifrata varmaq da eyni qaydada orta həddən aşmaq və israfçılıqdır"[16].

Bununla belə bütün cəmiyyətin məsrəfləri üçün eyni ölçü təyin etmək olmur, ancaq onun hüdudlarını orta bir qaydada müəyyən etmək mümkündür ki, bu da "ürf" termini ilə verilir. Adət üzrə məsrəf hədərə getməməli. Deməli, bu halda da məntiqi və rasional hədd saxlanılır. "Yeyin-için, ancaq israf etməyin!" (Əraf:31).

Yarımfəsildə eyni zamanda ***İsrafın səbəbləri və onu törədən amillər*** aşağıdakı kimi qruplaşdırılır:

1. Cəhalət və bilməzlik.

---

[13] تفسير الميزان، سيد محمد حسين طباطبايي، ترجمه محمدباقر موسوي همداني، قم، دفتر انتشارات جامعه مدرسين، 1374.ج7، ص364

[14] اسراف مادي سرمايه ها، محمود اكبري، تهران، ناشر فتيان، 1388 ،ص 20

[15] علم اخلاق اسلامي (جامع السعادات)، ملا مهدي نراقي، ترجم جلال الدين مجتبوي، تهران، حكمت،ص 51

[16] مباني و راهبردهاي جهاد اقتصادي، سيد حسين اسحاقي، قم، نشر هاجر، 1390، ص 85

İslama görə, qənaətcil olmaq ağıl və düşüncənin nişanəsi olduğu kimi, israfçılıq və bədxərclik də nadanlığın bariz əlamətidir[17]

2. Özünü göstərmək və qürrələnmək.

Peyğəmbər öz səhabələrinə xitab edərək "Hər kim başqalarının görməsi və eşitməsi (tərifləməsi) üçün bir bina tikirsə, qiyamət günü onu bir od parçası kimi yeddinci yer qatından yüklənib daşıyacaq"[18]

Bir çox ifratcıl istehlak və bədxərclik meylləri mühitlə bağlıdır. Sosioloqlar bu yöndə üç əsas məsələni diqqət mərkəzində saxlayırlar: 1. İrsi amillər; 2. Ailə mühiti;3. Xarici mühit[19].

4. Məsrəfdə başqaları ilə yarış psixologiyası israfın mühüm amillərindən biri kimi İslamda tənqid edilir[20].

5. Əxlaqi qüsur

Əxlaq islamda həyatın bütün sahələri üzrə önəmli sayılır[21]. Bu cəhətə görə bəzi Qur'an ayələrində israfçılıq günahlar sırasında verilir (Mumin:28; 34).

6. Vasvasılıq psixoloji bir amil olaraq insan ömrünü mənasız yerə hədərə verir, onun fiziki və ruhi gücünü sarsıdır, əsəblərini gərgin vəziyyətdə saxlayır[22].

7. Naz-nemət hərisliyi

Nəfsin islah edilməməsi və saflaşdırılması, eyni zamanda ağıl və dinin göstərişlərinə diqqətsizlik nəticə etibarilə insanlarda israfçılıq meylləri, harınlıq və Qur'anın ifadəsi ilə desək, naz-nemətə aludəçilik ruhiyyəsi yaradır. Buna görə Qur'ani-Kərim naz-nemət hərislərini və israfçıları cəhənnəm əhli adlandırır[23].

8. Tüğyan (azğınlıq).

Bəzən insanlar qanunsuz hədəflərə, qeyri-mənəvi istəklərə yetişmək, yaxud böyük güc sahibi olmaq məqsədilə ağlasığmaz

---

17 اسراف از ديدگاه اسلام، ولي الله رستگار جويباري، تهران، بنياد پژوهشهاي علمي و فرهنگي نورالاصفيا، 1379،ص 117

18 Tertibi F.A. Müttefekun aleyh hadisler. Konya. 2004.s.214

19 Bassett, G, A, And Meyer, H.H. Performance Appraisal 13 Based On Self-Review Personel – Psychology, 1998.p.145

20 Gülce . B. İslamın ekonomik boyuntu. Adana: Türkiye diyanet vakfı. 2001.s.74

21 Əhmədov Əhmədağa. İslam əxlaqı. Bakı: "Maaruf". 1993.s.53

22 صد و ده سوال از استاد شهيد مطهري، مجيد باقري، انتشارات خادم الرضا، 1379، ص 72

23 جواهر الكلام، محمد حسن نجفي، قم، المكتبة العلمية الاسلاميه، 1367 ه ش، ص 124



pullar xərcləyir, öz qüdrətini artırmaq üçün zülm və təcavüzə əl atırlar. Zor və zülm üçün xərclənən sərvətlər israfçılığın daha şiddətli formasıdır. Qur'ani-Kərim bu mənada Fironun azğınlığınını diqqətə çatdırır (Zuxruf:51).

**İkinci** yarımfəsildə **İsrafın növləri** qruplaşdırılır:

1. Yemək.

"Yeyin-için, ancaq israfa yol verməyin!" (Ə'raf:31). Burada israf dedikdə ifrata varmaq və hədərə vermək nəzərdə tutur[24]. Yeməkdə israfdan çəkinmək həm də sağlamlıq baxımından rasional düşüncə tərzi sayılır.

2. Geyim.

İslama görə geyim nəfsin rizası üçün işlənirsə, bu günah sayılır[25]. Ona görə bu məsələdə də israf yolverilməzdir.

3. Yaşayış yeri (Məskən).

İnsanın normal yaşamı üçün münasib mənzil şəraiti olmalıdır; ancaq bu məsələdə də israf halları özünü göstərir. Hədislərə görə,, bəzi səhabələr tərəfindən cah-calallı və böyük binaların tikilməsi xəbəri Peyğəmbərə (s) yetişəndə, o həzrət bunu cəhənnəm alovu ilə müqayisə etmişdi[26]. Çoxlu bina sahibi olmaq qəbahət deyildir, ancaq bunlar istifadəsiz qaldıqda israf və qeyri-rasional sayılır.

4. Nəqliyyat vasitələri.

Hədis və rəvayətlərdə sağlam və yaxşı minik yaşam üçün önəmli sayılır[27]. Ancaq bu məsələdə də israfçılıq məqbul deyildir.

5. Başqa yaşayış vasitələri.

İnsanların rahat yaşaması üçün zəruri şeylər, ev əşyaları və başqa vasitələr lazımdır ki, hər kəsin bunlara sahib olması məntiqi bir haldır. Ancaq bir çox halda ehtiyacdan artıq və lüzumsuz şeylərə daha çox pul xərclənir. Bu da nəticə etibarilə israfçılığa gətirib çıxarır və sosial münasibərlərdə rasional prinsipləri pozur.

6. Ümumi sərvətin məsrəfində israfçılıq.

Bir sıra təbii qaynaq və sərvətlər vardır ki, onlar ümumi istifadə üçün nəzərdə tutulur, buraya su, enerji, hava, meşə, otlaq və

---

24 تفسير كبير (مفاتيح الغيب). امام فخر رازى. بيروت، دار الكتب العلميه .1411. ج7،ص326

25 اسراف از ديدگاه دين و دانش، علي محمد حيدري نراقي، قم، انتشارات مهدي نراقي، ص 26 ،1388

26 بحارالانوار، علامه محمد باقر مجلسي، تهران، مكتبة الاسلاميه، 1362 ه ش،

27 مكارم الاخلاق، سيد مهدي موسوي كاشمري، قم، بوستان كتاب، 1386،

s. daxildir. Yarımfəsildə İslam qaynaqları əsasında onlardan rasional istifadə yolları verilir..

İsrafın ən pis növü ümumi mal-dövlətin, daha doğrusu beytül-malın hədərə verilməsidir[28]. Burada israfdan doğan günahla yanaşı, sosial və iqtisadi zərəri də nəzərə almaq lazım gəlir. İslam baxımından bəxşiş və pay yaxşı işdir, ancaq sərvətlərin yersiz paylanmasına icazə verilmir.

Ümumi sərvətin rasional məsrəfi çox mühümdür və Qur'ani-Kərim buyurur: "Allahın sizə dolanmaq üçün bəxş etdiyi malları səfehlərə verməyin. Onları həmin maldan yedirdib geyindirin və özlərinə xoş sözlər deyin!" (Nisa:5).

**Üçüncü** yarımfəsildə **Qeyri-maddi məsələlərdə israf** halları təhlil edilir. Qeyd etmək lazımdır ki, "ifratçılıq həm məsrəfdə, həm də əxlaqi məsələlərdə özünü göstərir"[29].Qur'an ayəsində deyilir:

"Şübhəsiz ki, sizin məni (sitayiş etməyə) çağırdıqlarınızın (dilsiz-ağızsız bütlərin) nə dünyada, nə axirətdə (bir kəsi) çağırmaq qabiliyyəti (ibadət olunmağa) haqqı yoxdur" (Mumin:43). Başqa ayələrdə də israf əxlaqi müstəvidə özünün göstərir və günahda həddi aşmaq kimi anlaşılır (Ya Sin:19; Zariyat:32-34).

Günahda israfla bağlı məqamları belə xülasə etmək olar:

1. Allahın nemətini unutmaq və naşükürlük (Yunus:12; Ə'nam:43) özü də israfın bir növüdür.

2. Təkəbbür və harınlıq (Cinn:4). Ayədə işlənən "şətatən" sözü nəfsə zülm etməkdə israf və ifrata varmaq deməkdir. Allah Bəni-İsraildən olan bir zümrəni fəsad və təkəbbürə görə qınayır[30] . Bu barədə başqa ayələr də vardır (Maidə:32;Yunus:83).

İsrafın mənşəyi əksər hallarda maddiyata olan tamahdan irəli gəlir. Həddi aşmaq isə istər-istəməz mənəviyyata olan diqqəti arxa plana keçirir[31]. Möminlər bu səbəbə görə Allahdan bağışlanmaq diləılər (Ali-İmran:147).

---

28 الگوي مصرف در آموزه هاي اسلامي، جواد ايرواني، مشهد، دانشگاه علوم اسلامي رضوي، 1388،

29 تفسير نور، محسن قرائتي، تهران، مركز فرهنگي درسهايي از قرآن، چاپ يزدهم، 1383.

30 تفسير الميزان، سيد محمد حسين طباطبايي، ترجمه محمدباقر موسوي همداني، قم، دفتر انتشارات جامعه مدرسين، 1374.

31 تفسير نور الثقلين، عبدالعلي شيخ جمعه العروسي الحويزي، قم، 1415 ه ق،



3. Allahın əmrinə zidd gedərək peyğəmbərlərin təkzib edilməsi (Maidə:32; Taha:127).

4. Dini zərurətləri inkar etməkdə israf (Nisa:150-151) və təhrif (Nəml:84).

İslam orta – rasional yolu seçir: "[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta (ədalətli) bir ümmət etdik ki, insanların əməllərinə şahid olasınız." (Bəqərə:143).

6. Başqaları haqqında israf.

İsrafın növlərindən biri də başqalarının haqqına laqeydlik, onların mənafeyinin tapdalanmasıdır.

**"Etidal İslamda rasonal münasibətin əsası kimi"** adlı **ikinci fəslin** birinci yarımfəslində **"Ədl və ədalət məfhumu"** açıqlanır. İslam ədalət və mötədillik məktəbidir və bu məsələ istər yaradılışın mahiyyəti və ictimai-sosial qanunların sistemləşdirilməsində, istər maddi və mənəvi işlərdə, istərsə də dünya və axirət məsələlərində özünü göstərir. Başqa sözlə desək, islamın sütunları sözügedən rasional dəyərlər üzərində formalaşmışdır.

Burada ədl və ədalətin lüğəti və terminoloji mənaları açıqlanır: hər şeyi öz yoluna qoymaq, tarazlıq və bərabərlik[32]. İlahi ədalət isə hər şeyi əhatə edir (Bəqərə:286; Yasin:54; Rəhman:7). Nəhl surəsi, 76-cı ayədən göründüyü kimi ədalət bir növ doğru yolu tapmağın əsas meyarlarından biridir. İslam əxlaqında mövcud olan üç fəzilət – şücaət, iffət, hikmətlə yanaşı, başqa bir fəzilət, yəni ədalət ortaya çıxır ki, bu da iki əks tərəf – ifrat və təfrit arasında orta hədd sayılır[33] ki, biz bunu rasionalizmin əsas meyarı adlandıra bilərik. Bununla da ədalətin gerçəkləşdirilməsi üçün münasib mühit formalaşır.

Ancaq ədalətin icrasına mane olan amillər də vardır ki, onları tanımaq lazımdır:

1. Bir nəsilin mənafeyini haqqdan üstün tutmaq (Nisa:135).

Ustad Mütəhhəri yazır: "insanlar və cəmiyyətlər adətən müxtəlif təmayüllərə görə yüz faiz yolu azmır, bir tərəfdə ifrata yönələrək nəticədə haqqdan sapınır və fəsada üz tuturlar"[34].

---

32 المفردات، ابو القاسم حسين بن محمد بن فضل معروف به راغب اصفهاني، ترجمه دكتر سيد غلامرضا خسروي حسيني، تهران، انتشارات مرتضوي،

33 مكارم الاخلاق، سيد مهدي موسوي كاشمري، قم، بوستان كتاب، 1386،

34 عدل الهي، مرتضي مطهري، تهران، صدرا، بي تا،

2. Haqdan qaçmaq (Maidə:8).

3. Mal-dövlətə görə törədilən fəsadlar (Bəqərə:188).

Burada *ədalət* mənası daşıyan ***qəsd*** kimi başqa məfhumlarlar da izah olunur:. Qur'anda Loğman öz oğluna nəsihət verərkən onu orta seçim etməyə (qəsd) dəvət edir, çünki doğru yol budur (Loğman:19). Başqa bir ayədə qəsd sözü yenə orta-doğru yol mənasında işlənir (Nəhl:9). Qəsd ifrat ilə təfrit arasında orta yoldur[35]

Bir sözlə, qəsd və həmin kökdən olan iqtisad sözü Qur'an və hədislərdə orta yol və mötədillik məzmunu bildirir.

İkinci yarımfəsildə ***cəmiyyətdə iqtisadi mötədillik və tarazlıq*** pasionalizmin sosial aspektlərindən biri kimi nəzərdən keçirilir.

Mötədilliyin əsas səciyyəsi onun tarazlıq yaratmaq xüsusiyyətidir. Bütün fəsadlar və xoşagəlməz hadisələr tarazlığın pozulmasından doğur. Peyğəmbərin bütün həyat və fəaliyyəti tarazlıq prinsipinə söykənmişdir: "Ey insanlar mötədilliyə gəlin, mötədilliyə gəlin, mötədilliyə gəlin!"[36]. Ustad Mütəhərrinin qeyd etdiyi kimi, "bəşər vücudunda ədalət psixologiyasının hakim olması onun ağıl və nəfsini, zahir və batinini düz yola yönəldir"[37].

Cəmiyyətdə mötədillik bir neçə baxımdan diqqəti cəlb edir:

Ailə iqtisadiyyatında mötədillik məsrəfdə orta həddi gözləməklə təmin edilir ki, bunu Quran ayələri ilə yanaşı, hədislər də təkid edir. Burada qənaətin rolu çox böyükdür. Qənaətin əks tərəfi bədxərclik və israfdır. Qənaət rasional münasibətin göstəricisidir:

"Nə əlini çox bərk sıx, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan." (İsra:29).

Beləliklə, İslamda ailə və cəmiyyət həyatının rasional tənzimlənməsi orta yolla təmin edilir:

1. Mömin xəsislikdən uzaq olmalı (Ali-İmran:180), öz imkanı həddində yardım etməlidir;

2. Bəxşişdə mötədillik ərəb dilində "qivam" adı ilə verilir. Bu ədalət, tarazlıq və iki şey arasında orta hədd deməkdir.

3. İfrat və təfrit bəyənilməyən sifət, mötədillik isə düz yoldur.

---

[35] مجمع البحرين، فخر الدين بن محمد طريحي، تهران، فرهنگ و ارشاد اسلامي، 1375،

[36] كنزالعمال، علاء الدين علي المتقي بن حسام الدين الهندي، بيروت، موسسه رساله، 1409 ه.ق.

[37] عدل الهي، مرتضى مطهري، تهران، صدرا، بي تا،



4.İslam müsəlmanların sıxıntı və zillət içində yaşamasını rədd edir, ancaq israf və bədxərcliyi də qəbul etmir. Qur'an onu belə səciyyələndirir: "Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edir, bu ikisinin arasında orta bir yol tuturlar." (Furqan:67).

5. Hər bir işdə və əməldə onun nəticəsini nəzərə almağı tövsiyə edir;

Deməli, istər ailənin və istərsə də toplumun sosial ehtiyaclarının təmin edilməsində ifrat və təfritdən uzaq olmalı, yəni orta və rasional yolu tutmaq lazımdır.

Növbəti yarımfəsildə **Orta ümmət və ədalət** məfhumu təhlil edilir. Lüğətdə orta (vəsət) sözü iki şeyin arasında orta həddi bildirir. "Təfsirül-Mizan"da göstərilir ki, "iki tərəf arası orta adlanır, bu isə nə o tərəfə, nə də bu tərəfə aiddir. Müsəlmanlar da kitab əhli və müşriklər arasında həmin mövqeyə malikdir"[38]. Müsəlmanların mötədil bir ümmət olduğu Qur'an ayəsində təsdiqlənir: "(Ey müsəlmanlar!) Beləliklə də, sizi orta (ədalətli və mötədil) bir ümmət etdik ki, insanların əməllərinə şahid olasınız, Peyğəmbər də sizə şahid olsun." (Bəqərə:143). "Məcməül-bəhreyn"də deyilir ki, "orta hədd hər şeyin ən mötədil və ləyaqətlisidir. Ona görə islam peyğəmbəri (s) haqqında bəhs edərkən onu qövm arasında orta mövqeyinə görə yüksək dəyərləndirmişlər"[39].

İslamın gəlişi ilə orta ümmət məfhumu da gündəmə gəldi və həmin anlam bu mədəniyyətin təməl dəyərləri sırasına daxil oldu. İslam tarixinə qədər xalqlar iki qrupa ayrılmışdılar: bir qrup yəhudilər və müşriklər kimi bütün diqqətini maddi yönə yönəltmiş və bu məsələdə ifrata varmışlar; o birisi qrup isə xristian rahibləri kimi çətin maddi sıxıntılara qatlaşaraq tərki dünyalığa meyllənmişlər. Hər iki yol Allahın tövsiyə etdiyi düz yoldan (sirati-müstəqim) uzaqlaşmaq deməkdir. Düz yol isə bəşər fitrətinə uyğun gələn məntiqlivə rasional yoldur.

İslam nə var-sərvət hərisliyini, nə də kasıblığı bəyənir[40]. Orta ümmət dedikdə haqq və ədalətin tərəfdarı olan insanlar nəzərdə

---

[38] تفسير الميزان، سيد محمد حسين طباطبايي، ترجمه محمدباقر موسوي همداني، قم، دفتر انتشارات جامعه مدرسين، 1374.

[39] مجمع البحرين، فخر الدين بن محمد طريحي، تهران، فرهنگ و ارشاد اسلامي، 1375

[40] Ceyhun Məmmədov. Şəmsəddin əs-Səxəvi və onun "Richanul-kəffəti fi bəyani nubzətin min əxbəri əhlis-suffə" əsəri. Bakı: "Nafta-Press. 2012.

tutulur, həmin ümmət həqiqətin şahidləridir. "Orta ümmət bizik, Allahın xalq içində şahidi, onun hücсəti bizik. Doğru yoldan ifrata sapınanlar gərək orta ümmətin yoluna qayıtsınlar, təfritə meyl edənlər də bu yola gəlməlidir"[41].

Orta ümmət bir növ rasionalizmə əsaslanan fəzilətli cəmiyyətin əsasını təşkil edir. Orta ümmətin başçıları cəmiyyətdə gedən prosesləri diqqətlə izləyərək insanları ifrat və təfritdən çəkindirməli, onları doğru yola yönəltməlidir.

İslam hətta etiqad məsələsində də orta yolu seçir.

Sonra qorxu və ümid, əxlaqda sücaət, iffət kimi mötədillik prinsipləri açıqlanır. İslamda təkəbbür pis və çirkin hesab edildiyi kimi, (Loğman:18), zillət də pis və xoşagəlməz xüsusiyyətdir, bu iki əks qütbün orta həddi məhz təvazökarlıqdır[42].

Sonda isə ictimai əxlaq və davranışda mötədillik araşdırılır və islama görə ictimai həyatda rasional və əxlaqlı münasibət qurmaq yolları göstərilir:

1. Gözəl xasiyyət və mötədillik (Taha:42-44).

2. Danışıqda mötədillik. Qaynaqlara görə həzrəti Məhəmməd (s) ərəblərin ən fəsahətlisi olmuş və danışıq tərzində rasional yol seçmişdir[43].

3. Sözlə əməl uyğunluğu

"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar." (Səff:2-3).

4. Ailə əxlaqında mötədillik.

4.1. Valideyn hüququna riayət edilməsi və bu məsələdə mötədil rəftar.

2. Övladların hüququnun təmin edilməsi və bu işdə mötədillk.

3. Kişi və qadın münasibətlərinin tənzimlənməsində mötədillik.

**Üçüncü fəsil "İslamda sosial məsələlərə rasional münasibət və müasirlik"** adlanır və burada sosial həyatın rasional

---

[41] اقرب الموارد، سعيد الحوزي الشرتوني البناني، قم، كتابخانه عمومي آيت الله مرعشي نجفي، 1403ق.

[42] بيان السعادة في مقامات العباده، سلطان محمد گنابادي، مترجم: رضا خاني، حشمت الله رياضي، تهران، مركز چاپ و انتشارات دانشگاه پيام نور، چاپ اول، 1372،

[43] سنن النبي، طباطبايي، تهران، صلاة، 1385،



tənzimlənməsinə əngəl olan israfın gətirdiyi fəsadlar və onların qarşısının alınması yolları araşdırılır.

İndi ictimai fikirdə belə bir mülahizə formalaşmışdır ki, dünya iqtisadi sistemi mövcud sərvətlərdən faydalanma məsələsində ahəngdar bir nizam yarada bilməmiş, bunun nəticəsində bir yandan əhalinin sürətli artımı, ərzaq resurslarından qeyri-bərabər istifadə, kasıbçılıq və səfalət halları, o biri yandan isə israfçılığın və lüzumsuz xərclərin çoxalması dünyanın soaial balansını pozmuşdur.

Birinci yarımfəsildə ***israfçılığın genişlənməsində müasir amillər*** açıqlanır.Qeyd olunur ki, ifrat məsrəfçilik iqtisadi asılılığın əsas amillərindən biridir. Onun acı nəticələrindən biri bundan ibarətdir ki, istehsal və istehlak arasında olan tarazlıq pozulur, ölkənin milli ehtiyatlarının bir qismi qeyri-zəruri malların idxalına sərf olunur. Qur'ani-Kərimin Hud surəsinin 116-cı ayəsində deyilir:

"Barı sizdən əvvəlki nəsillərin ağıl və fəzilət sahibləri yer üzündə fitnə-fəsad törətməyi qadağan edəydilər. Onların xilas etdiyimiz az bir qismi istisnadır. Zalimlər isə dünyanın naz-nemətinə uydular və günahkar oldular."

Cəmiyyətdə məsrəfin tənzimlənməsi üçün öncə insanların bu məsələyə baxışları islah olunmalı, yəni istehlak mədəniyyəti formalaşmalıdır. Məsrəfin ölçülərinin rasional tənzimlənməsində bir çox amillər iştirak edir ki, "bunlar arasında ən önəmlisi mədəniyyətdir"[44].

İslamda insanın özünün özünə nəzarəti bu baxımdan böyük əhəmiyyətə malikdir və qaynaqlarda bu barədə çox bəhs edilir. İslamda özünə nəzarət *təqva* məfhumu ilə gerçəkləşir və "bununla qənaətcil iqtisadi sistem yaratmaq olar"[45].

Rasional iqtisadi-sosial balansı pozan, əhalinin çoxunun məhrumiyyətlə üzləşməsinə səbəb olan sosial problemlərdən biri bir sıra zümrələrdə müşahidə edilən cah-calal və təmtəraqlı həyat tərzidir. Qeyri-ilahi amillərə əsaslanan sistemlərdə ictimai və iqtisadi

---

[44] نظريه و سياست اقتصاد كلان، فرد گليهي، ترجمه مهدي تقوي، تهران، كتابخانه فروردين، چاپ اول، 1366،

[45] اسلام از ديدگاه دانشمندان غرب، نصراله نيك بين، فارس، انتشارات شركت سهامي سيمان فارس و خوزستان، بي تا،

qurumlar yalnız bol mənfəət, təmtəraqlı həyat dalınca gedirlər. Qərb sosioloqu L. Furcin bu amili kəskin tənqid edir[46].

İslamda məsrəfin rasional tənzimlənməsi üç əsasa söykənir:

a) ilahi nemətlərdən faydalanmaq;

b) qənaətcil və optimal istifadə;

c) israf və bədxərclikdən çəkinmək.

İsrafın törətdiyi fəsadlar arasında ərzaq böhranı xüsusi yer tutur. L. Sravrinaosun yazdığı kimi, "üçüncü dünya Avropanın şimal-qərbində baş verən taleyüklü ictimai-sosial sıçrayış nəticəsində əmələ gəldi və dünyada hakim bir güc kimi hökmranlığa girişdi. Üçüncü dünya ölkələri isə həmin sənaye kapitalının köməyi ilə istehsal olunan malların bazarına çevrildi"[47].

Həmin ölkələrdə təkcə sənaye deyil, kənd təsərrüfatı sahəsi də geridə qalır və bu ölkələrdə əhalinin sürətli artımı isə böyük ərzaq böhranı yaratmışdır. Bu baxımdan bir sıra statistik məlumat mövcud vəziyyət barədə daha konkret təsəvvür yaradır. 1990-cı ildə inkişaf etməkdə olan ölkələrdə yaşayan 730 mln nəfər standartdan aşağı səviyyədə qidalanmışdır. Çin bu sıraya daxil deyildir. Onlardan 470 mln nəfər Hind yarımadasında 7 ölkədə, 150 mln Afrikada və 110 mln nəfər isə Cənubi Amerikada və Orta Şərqdə yaşayır[48].

Dünya ərzaq qıtlığı ilə üzləşdiyi halda ildə istehsal olunan qida məhsullarının üçdə biri çölə atılır və ya israfçılıq üzündən məhv edilir. BMT-nin Ümumdünya ərzaq təşkilatı göstərir ki, ildə dünyada 1,3 mlrd ton qida məhsulu ya zay olur, ya da israfçılıq üzündən atılır ki, bu da dünya üzrə taxıl istehsalının yarısına bərabərdir (www.hakimameh.ir).

Ədalət üzərində formalaşan islam təliminə əsasən, cəmiyyətin sərvətinin böyük bir qismi bir qrup tərəfindən yağmalanmasa burada kasıbçılıq olmaz. Amerika iqtisadçısı Qoldef kapitalist sisteminə xas olan israf və bədxərcliyin törətdiyi sosial problemləri təhlil edərək xəbərdarlıq edir ki, "aclıq adlanan sunami dünyada genişlənməkdədir (www.sworldfood.ir).

---

46 سیستم قیمت ها و تخصیص منابع تولیدي، لفت ویچ، ترجمه سجادي، تهران، دانشگاه علامه طباطبایي، 1375،

47 غرور و سقوط، آنتوني پارسونز، ترجمه محمود طلوعي، تهران، نشر علم،

48 Laster Brown. "Sustaining World Agri Culture", In Laster Brown. State Of The World: 1987 (New York: Norton, 1987).



İsraf və bədxərclik təkcə qida məhsulları ilə məhdudlaşmır bu problem bəlkə yeraltı sərvətlərin məsrfində daha qabarıq şəkildə özünü göstərir. Ruqie Qarodi ticarət dünyasının bəşəri necə təhdid etməsi barədə "Dirilərə xitab" adlı kitabında xəbərdarlıq edir: "Biz bəşərin ölümə doğru getdiyini necə müşahidə edirik? Enerji qaynaqları yerin qatlarında milyon illər ərzində yaranaraq ehtiayat kimi toplanmışdır. Ancaq biz modern insanlar onların hamısını bir nəslin tamahı ucbatından tələf edirik[49].

Bu məsələ ilə bağlı islamda Seyyid Hüseyn Nəsrin mövqeyi diqqəti cəlb edir: "İslamın insana olan baxışını dərk etmədən həmin təlimin təbiət və mühit barədə mülahizələrini tam şəkildə anlamaq mümkün deyildir. Məsələ burasındadır ki, ənənəvi dinlərdə insan təbiətin qəyyumu hesab edilir. İslamda insanın təbiətə sağlam münasinbətinə xüsusi diqqət yetirilir. Ancaq modern dünyada insan özünə yüksək mələkut aləmindən yer üzərinə endirilmiş bir məxluq kimi deyil, sanki aşağı aləmdən yüksəkliyə ucalmış bir varlıq kimi baxır, öz əsl missiyasını unuduraq indi yer kürəsini ölümcül halda qarət edən və onu viran qoyan bir məxluqa çevrilmişdir"[50].

Nəsrin sözləri ilə desək, "indi hərisliklə dünyanı udmaq istəyən modern insan təbiətin balansını pozmaqla öz həyatını fəlakətlə üz-üzə qoymuşdur"[51].

Deməli, məsrəfin düzgün və rasional şəkildə tənzimlənməməsi bu günkü sosial və ekoloji böhranın səbəblərindən biridir.

Məsrəfin düzgün və rasional tənzimlənməməsi üzündən su ehtiyatlarının vəziyyəti də get-gedə pisləşməkdədir. Qur'ani-Kərim 1400 il öncə bəşərin yer üzərində törətdiyi fəsadın acı nəticələri barədə belə xəbərdarlıq etmişdir: "İnsanların öz əlləri ilə etdikləri pis əməllər (öz günahları) üzündən suda və quruda fəsad, pozuntu əmələ gələr (bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində dəhşətli yağmurlar yağar, zəlzələ baş verər, dənizdə gəmilər batar) ki, Allah (bununla) onlara etdikləri bəzi günahların cəzasını dadızdırsın və bəlkə də onlar (tövbə edib pis yoldan) qayıtsınlar" (Rum:41).

---

49 هشدار به زندگان، روژه گارودي، ترجمه علي اکبر کسمایي، تهران، ناشر هاشمي، 1363،

50 نیاز به علم مقدس، سید حسین نصر، ترجمه حسن میانداري، قم، موسسه فرهنگي طه، 1378،

51 Seyyed Hossein Nasr, An Introduction to Islamic cosmological Doctrine, "Islamic cosmology" in Unesco, to Islamic civilization. Albany: State University of New York press, 1998.

İkinci yarımfəsildə ***Qeyri-rasional münasibətin neqativ sosial nəticələri*** açıqlanır.

Dəbdəbəli həyat tərzi və ifrat məsrəflərin kökləri qədimlərə, səltənət dövrünə gedib çıxır. Bunun əsasında insan nəfsinə xas psixoloji amillər – təkəbbür, hərislik və özünü başqalarından üstün tutmaq kimi xüsusiyyətlər dayanır. İstər Şərqdə, istərsə də Qərbdə bu cür həyat tərzi müxtəlif dövrlərdə olmuş və modern dünyada onun yenidən genişlənməsi müşahidə edilir. Mahiyyət etbarilə bu məsələ insanın cahilliyinə dəlalət edir.

Allah bütün varlıq aləmini insanın istifadəsi üçün yaratmış, həmin istifadənin rasional şərtlərini də müəyyənləşdirmişdir: halal qazanc, halal məsrəf, israf və bədxərclikdən çəkinmək, başqalarının haqqını nəzərdə tutmaq.

İslamın başlanğıcında müsəlmanlar sadə və təvazökar həyat tərzinə malik omuşlar, bu baxımdan onlar əzmkar, iradəli və güclü bir ümmət kimi ortaya çıxdılar və müxtəlif hücumlara sinə gərərək qalib oldular. Lakin Əməvilər dövründə xilafət səltənətə çevrildikdən sonra dəbdəbəli həyat tərzi onları yüksək mənəvi dəyərlərdən uzaqlaşdırdı və ilkin qüdrət və əzəmətini itirdilər. Bütün cəmiyyətlər üçün bu bir ibrət məsələsidir[52].

Qur'ani-Kərim buyurur: "(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçinin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. (Dünya malına aldananları) axirətdə şiddətli əzab, (dünya malına uymayanları isə) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan, yalandan başqa bir şey deyildir" (Hədid:20).

Cəmiyyətdə insanlar tərəfindən müəyyən normalar və qaydalar formalaşır və buna "ürf" deyilir, şəriət də həmin ölçü və hüdudları nəzərə alaraq hökm çıxarır. Cövhəri bu barədə belə yazır: "Ürf hər bir məsələ dəlil və əsas kimi götürülə bilir"[53]. İbn Xəldunun

[52] ترجمه الحياة فرهنگ اسلامي، محمدرضا حكيمي، علي حكيمي، محمد حكيمي، تهران، انتشارات نگارش.

[53] جواهر الكلام، محمد حسن نجفي، قم، المكتبة العلمية الاسلاميه، 1367 ه ش،



xəbərdarlıq etdiyi kimi, israf və dəbdəbəyə yuvarlanan xalq tədricən zəifləşməyə və məhvə doğru gedir[54].

Qur'an belə zümrənin doğru yoldan azmasına işarə edərək buyurur: "Musa dedi: "Ey Rəbbimiz! Sən Firona və əyan-əşrafına dünyada zinət və mal-dövlət ehsan etdi! Ey Rəbbimiz! (Bu sərvəti onlara bəndələrini) Sənin (Haqq) yolundan azdırmaq üçün verdin. Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və ürəklərini möhürlə ki, şiddətli əzabı görməyincə iman gətirməsinlər" (Yunus:88).

İslama görə, mal və sərvət, böyük imkanlar insanları sınamaq üçündür və Allah-təala imansız insanları bu yolla sınağa çəkir və həmin sərvət düzgün və rasional xərclənmədikdə nəticə etibarilə onların məhvinə səbəb olur.

Bu məsələ Avropa maarifçilik cərəyanında da oxşar tərzdə qoyulur. Fəsad və dəbdəbə bir-birilə bağlıdır, çox halda dəbdəbənin ardınca fəsad gəlir, yaxud fəsadın ardınca dəbdəbə gəlir. İslam sosial-iqtisadi sistemi hədəf baxımından insanların zəruri tələbatının ödənilməsində gerçək mövqeyə malikdir, belə ki, burada onların təbii istək və ehtiyaclarının təminatı ahəngdar və ümumi xarakter daşıyır. Kapital və gəlir ehtirası artdıqca cəmiyyətdə təbəqələşmə güclənir və əhalinin istehlakda payı azalır, "onun böyük bir qismi iş və məhsul bölgüsü sahəsindən çıxarılır"[55].

İstehsalın dəbdəbəli həyat tərzinə uyğun şəkildə qurulmasının bir sıra neqativ sosial-iqtisadi nəticələri vardır:

1. Sərmayənin boş yerə xərclənməsi və kasıb təbəqənin sosial vəziyyətinin pisləşməsi.
2. İctimai və əxlaqi dəyərlərin aşağı düşməsi.
3. İqtisadi asılılıq.
4. Dini-əxlaqi unutqanlıq.

Üçüncü yarımfəsildə ***"Məsrəfin tənzimlənməsi üçün lazımi islahatlar"*** nəzərdən keçirilir. Cəmiyyətdə məsrəflərin rasional tənzimlənməsi onun dinamik inkişafı və rifahı üçün zəruri məsələlərdən biridir və bu yöndə münasib ictimai-sosial zəminin

[54] مقدمه ابن خلدون، عبدالرحمن خلدون، محمد پروين گنابادي، تهران، نشر علمي و فرهنگي، 1384.

[55] اقتصاد اسلامي، سيد محمد حسين بهشتي، تهران، دفتر نشر فرهنگ اسلامي،

formalaşması lazım gəlir. Bu baxımdan üç sahə üzrə islahat aparmaq müsbət nəticələr verə bilər:

1. İdarə sistemində islahatlar.

İqtisadi strukturda maliyyə qaynaqlarından səmərəli istifadə üçün sağlam idarəçilik sisteminə ehtiyac vardır. İqtisadi sistemdə düzgün idarəçiliyin bir qolu maliyyə qaynaqlarının tənzimlənməsi və onlardan cəmiyyətin rifahı üçün rasional istifadə məsələsi ilə bağlıdır. İdarəetmədə yol verilən yanlışlıq məsrəflərin boş-boşuna getməsinə, israfçılığa səbəb olur.

2. Sosial-iqtisadi islahatlar.

Sosial-iqtisadi islahatlar islam təfəkküründə ədalət prinsipinə əsaslanır və bu isə bütün işlərdə, o cümlədən iqtisadi sahədə balans və tarazlığın saxlanmasını nəzərdə tutur.

3. Təlim-tərbiyə və mədəni istiqamətdə islahat.

Məsrəfin düzgün qurulması özü bir mədəniyyətdir və həmin mədəniyyətin formalaşması öncə ailədə, sonra cəmiyyətdə baş verir. Ailə ilk sosoal sistem hesab edilir[56]. İstehlak mədəniyyətinin ilkin təşəkkül yeri ailədir və mövcud imkanlardan və büdcədən səmərəli, qənaətcil istifadənin bünövrəsi burada qoyulur. Bütün sadalanan məsələlərdə islam dəyərlərindən faydalanmaq mümkündür.

Qərb alimləri islamı hərtərəfli və müasir dünya ilə uyğunlaşan bir təlim kimi dəyərləndirmişlər. Bu baxımdan məsrəfin və sosial ədalətin tənzimlənməsində, insanların bu yöndə davranış və əxlaqının təkamülündə islam dəyərləri rasional amil kimi diqqəti cəlb edir. İngilis yazıçısı Herbert Corc Velz yazır: "Qur'an elmi, dini, əxlaqi ictimai və tarixi kitabdır. Onun qanun və hökmləri müasir dünyanın qayda-qanunları və prinsipləri ilə uyğundur. Onun hökmlərinə həmişə əməl etmək olar. Hər kəs bəşər sivilizasiyasına qoşularaq qabağa getmək istəyirsə islamı və Qur'anı seçə bilər"[57].

İslam iqtisadi-sosial sistemi vəhydən dogan bir təlimə əsalanaraq insanı ağıl, iradə və məsuliyyət sahibi kimi tanıyır. Həmin cəhət insana mal-dövlətdən rasional istifadəyə imkan verir.

---

[56] Metin Doğan. Kuran, peygamber ve toplum | Kuranın sosyplojisi üzerine Denemeler|. Edütör: Mehmet Bayyiğit. Konya: Yediveren kitap. 2003

[57] اسلام از دیدگاه دانشمندان غرب، نصر اله نیک بین، فارس، انتشارات شرکت سهامی سیمان فارس و خوزستان، بی تا،



Məsələyə bir qədər dərindən yanaşdıqda, islam mal və sərvəti ilahi nemət sayır, insanı isə yer üzərində xəlifə edərək ona bütün təbii sərvətlərdən bəhrələnmək haqqı verir.

Təbiidir ki, insan malik olduğu şeydən istədiyi kimi istifadə edə bilər, lakin burada mühüm bir məqam vardır: məsrəfin rasional həddi və ölçüsü olmalıdır. Deməli, burada sosial tənzimləmə iki əsasa dayanır: rasional münasibət və əxlaqi davranış.

"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri (özünüzə) haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!

Allahın sizə verdiyi ruzidən halal və təmiz olanını yeyin. İnandığınız Allahdan qorxun!" (Maidə: 87-88).

Yarımfəsildə məsrəfin stimulları açıqlanır:

1. Həyati ehtiyacların ödənilməsi.

2. İlahi nemətlərdən ölçünü gözləməklə faydalanmaq.

3. Haram və qeyri-zəruri məsrəflərdən çəkinmək.

İslamın haram buyurduğu şeylər dəlilsiz deyildir və bunların hər birinin insan üçün zərəri vardır. Bəzən mal mahiyyətcə haram deyildir, lakin fərd onu qərəzli və haram məqsədlə işlədir, bu isə İslamda yolverilməz sayılır.

**Sonda bir sıra nəticələr ümumiləşdirilir:**

İslam mədəniyyətində qarşılıqlı yardıma, ictimai ədalət və qardaşlıq prinsiplərinə əsaslanan sosial münasibətlər mövcud imkan və sərvətlərdən rasional istifadəyə önəm verir. Bununla cəmiyyətdə ümumi mənafe və hüquqlar qorunur, lüzumsuz məsrəflərin qarşısı alınır.

1. Tədqiqat işində islam rasionalizminin sosial aspektləri Quranvə hədislər kimi ilkin qaynaqlar əsasında araşdılar. İslam təkcə etiqad prinsiplərini ehtiva edən ehkamlar toplusu deyil, həm də insanın fərdi, ictimai və sosial-iqtisadi həyatını tənzimləyən qaydalar və göstərişlər toplusu olaraq diqqəti cəlb edir.

2. İslamda bütün məsələlər, o cümlədən sosial münasibətlər ağıl və məntiq əsasında tənzimlənir, bu məqsədlə müəyyən normal və hüdudların qorunması tövsiyyə edilir ki, bunun əsasında gerçəkliyə rasional münasibət dayanır.

3. İslam təfəkküründə sosial münasibətlərin rasional şəkildə tənzimlənməsində iki mühüm məsələ diqqəti cəlb edir:

a. İsrafın qarşısının alınması və məsrəflərin düzgün tənzimlənməsi;

b. Ədalət və balansın saxlanılması.

4. İsraf Quranda ilahi hüdudları aşmaq mənasında işlənir və geniş mənada fərdi, ictimai, maddi-sosial və həm də dini məsələlərə şamil edilir. İsrafdan başqa, islamda "təbzir" məfhumu bədxərclik və mal-dövlətin zay olması mənası bildirir və pislənir. Mövcud imkan və qaynaqların səmərəsiz işlənməsi onların hədərə getməsi və qeyri-rasional məsrəfi kimi dəyərləndirilir. İsraf və təbzir sıra psixoliji və əxlaqi amillərlə bağlıdır ki, onları bu şəkildə ümumiləşdirmək olar:

- cəhalət, təkəbbür, lovğalıq, əxlaqi naqislik, qeyri-sağlam rəqabət.

5. İslam mötədil – yəni orta yol seçən bir təlimdir, burada fərdi və ictimai həyatın bütün sahələrində balans və tarazlıq saxlanılır. Bunun üçün ifrat və təfrit – hər ikisi rədd edilir. Orta həddi gözləmək isə mahiyyətcə rasionalizmin mühüm göstəricilərindən sayılır. Bu baxımdan iqtisadi-sosial həyatda istər xəsislik, istərsə də israfçılıq rədd edilir və Quran ayələrinin hökmünə uyğun (İsra:29.110, Rəhman:7-9) orta hədd gözlənilir.

6. İslam mədəniyyətində iqtisadi-sosial model ədalət və tarazlıq prinsipi üzərində qurulmuşdur və burada "qəsd" və "iqtisad" terminləri də həmin mənanı ifadə edir. Bu sistem rasional düşüncəyə əsaslanaraq səmərəlilik və qənaət yolu ilə maddi və maliyyə qaynaqlarının cəmiyyətin ümumi mənafeyinə uyğun sərf edilməsini önə çəkir;

7. İslam mötədil – yəni rasional dindir və ona görə müsəmanlar "orta ümmət" – yəni təfrit və ifratdan uzaq olaraq bütün məsələlərdə, hətta ibadətdə, ictimai-sosial həyatda daha məntiqli yol olan orta ölçünü seçməli olurlar. Orta ümmət etiqad, iman, əməl, əxlaq, iqtisadiyyat və sosial məsələlərdə, fərd, ailə və cəmiyyətin hüquqlarının qorunmasında orta mövqe nümayiş etdirir. Orta yol həm də Qurani-Kərimdə vurğulanan doğru yol – yəni "sirati-müstəqim"dir.



8. İslam qaynaqlarında önə çəkilən rasionalizmin sosial aspektləri, burada irəli sürülən prinsiplər müasirlik baxımından da aktualdır. Dünya təşkilatlarının elan etdiyi rəsmi statistik məlumatlar göstərir ki, bir çox iqtisadi-sosial böhranların kökündə məhz mövcud imkanlardan səmərəsiz və qeyri-rasional istifadə dayanır. Buraya təbii və iqtisadi qaynaqların istifadəsində israfçılıq, lüzumsuz məsrəflərin artımı, orta həddin gözlənilməməsi və s kimi amillər daxildir.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. İslam düşüncə modelində mötədillik./ Elmi axtarışlar (AMEA Folklor İnstitutu)/. s.117-127

2. Məsrəf və onun tənzimlənməsi/ Dövlət və din (ictimai fikir toplusu)/, 2009, №4. s.113-119

3. İsrafçılıq və onun Quran ayələrində və rəvayətlərdə anlamı /Elmi axtarışlar (AMEA Folklor İnstitutu)/.2010, № 2 (4). S.198-203

4. İsrafın növləri və islamda onunla mübarizə/ AMEA Əlyazmalar İnstitutu. Filologiya məsələləri/.2010, №4.s. s.629-637

5. İslam baxımından israfın sosial-psixoloji amilləri/ Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi məcmuəsi/. Bakı, 2012, № 18. s.189-198

6.İslamda sosial ehtiyacların rasional tənzimlənməsi/ AMEA akad. Z.M. Bünyadov adına Şəərqşünaslıq İnstitutunun "Elmi araşdırmaları" /elmi-nəzəri məqalələr toplusu). IX buraxılış. Bakı. 2012. s.555-558

7. İslamda sosial ehtiyacların rasional tənzimlənmə üsulu. / Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri./ Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr edilmiş XIII Respublika konfransının Materialları (Bakı, 24 may, 2013). s. s.504-510

8. Основные аспекты сбалансированного подхода в исламском рационализме./ ХАБАРШЫ/ ВЕСТНИК Казахский национальный университет им.Аль-Фараби/Серия Востоковедения/ Алматы. 2012, № 2 (59).с.58-61

## Социальные аспекты рационализма в исламе
## (РЕЗЮМЕ)

В работе анализируются основные социальные аспекты рационализма в исламской культуре.Рациональный и логический подход к действительности и явлениям мира встречаются во многих культурах и его истоки и пределы не ограничиваются только греческой философской мыслью. В этом отношении довольно четко выделяется ислам. Коран – Священная книга мусульман во многих стихах однозначно призывает человека к размышлению и разуму. Данный призыв охватывает все аспекты человеческой жизни, начиная с вероисповедания вплоть до социально-экономических вопросов. По исламу разум будучи главным достоинством человека, помогает ему правильно разобраться во всех происходящих событиях. Рационализм также дает возможность регулировать социальные и общественные вопросы.

**В первой главе** рассматривается понятие «есраф» - расточительство, которое считается главным препятствием на пути рациональной регуляции социальных благ. Здесь же раскрывается сущность данного понятия, излагаются его негативные последствия в нематериальных вопросах.

**Во второй главе** исследуется базовая категория исламского рационализма под названием «справедливости», которая означает сбалансированный подход к социальным явлениям. Это понятие имеет широкий спектр толкований и играет важную роль в обеспечении социально-экономического баланса в обществе. Здесь также освещается другое важное понятие «васат» (середина) в качестве рационального подхода, которое регулирует общественно-социальные взаимоотношения между членами общества.

**В третей главе** речь идет о современных факторах расширения расточительства, которое приобрело глобальный характер и стало общественно-социальным злом. Это явление рассматривается как действие, направленное против рационализма.



## Social aspects of rationalism in Islam
## (SUMMARY)

The paper considers the main social and community aspects of rationalism in Islamic culture. Rational and logical approach to reality was presented in many cultures. This approach is not limits to Greek philosophical system and is useful in Holy Quran, that calls to thinking and reason. Principle of rationalism covers all aspects of Human life, from religious belief to socio-economic issues.

The One of the main principle of holy Koran's cosmology depend to intellect. Many sign's of holy Koran confirm this truth analyzed. The believe and faith are constitutional phenomenon and they are by intellect. As a general rule in structure of Islamic thinking and believes every things depends to intellect and science and knowledge.The revealed issues are explained by logic and argument. The holy Koran invites human to thinking and deliberation in all it's judgments

The paper analyses the main social aspects of rationalism in Islamic culture.

**The first chapter** discusses the concept of "esraf" (waste), which is main obstacle to the rational regulation of social benefits. Here, was presented the essence of this concept and its negative consequences in social relationship.

Basic category of Islamic rationalism "adl" (equilibrium) and "vasat" (middle) have been analyzed in **second chapter**. This principle comprises material, ethical, social and spiritual aspects of harmonic world-structure. The conception of traditional interpretation of equilibrium have been based on Koranian category "Straight Path". This concept plays an important role in the socio-economic balance in society.

**The third chapter** contains modern factors of expansion of waste, which have given global character and became the public social evil. This factor was perceived the non-rationality. End of chapter considers recommendations of Islam to rational regulation of social relationship.

Tiraj 100. "Elm və təhsil" nəşriyyatı
Pulsuzdur. Sifariş №.66